# “Beynəlxalq Ordu Oyunları - 2021” yarışlarında iştirak edən Azərbaycan heyəti Moskvadan Bakıya qayıdıb

“Beynəlxalq Ordu Oyunları - 2021” yarışları çərçivəsində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən “Tank biatlonu” və “Mədəniyyət Ordusu” müsabiqələrində iştirak edən komandalarımız Bakıya qayıdıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, müsabiqələrdə uğurla çıxış edən Azərbaycan hərbçilərinin qarşılanma mərasimi hərbi orkestrin müşayiəti ilə keçirilib.

Qeyd edək ki, Azərbaycan hərbçiləri “Beynəlxalq Ordu Oyunları - 2021” yarışları çərçivəsində Rusiyada “Tank biatlonu” və “Mədəniyyət Ordusu”, İran İslam Respublikasında “Dəniz kuboku”, Qazaxıstanda “Artilleriya atəşinin ustaları” müsabiqələrində iştirak edərək yüksək nəticələr göstərib.

**AZƏRTAC**

Azərbaycan.- 2021.- 8 sentyabr.- S.4.